Deloitte & Touche MMAC
25E Nobel pr.
Bakı, AZ1025, Azərbaycan

Tel.: +994 (12) 404 12 10
Faks: +994 (12) 404 12 11
deloitte.az

Ref: № 028

**22 Aprel 2020**

Cənab Səbuhi Gülməmmədov
Palatanın icraçı direktoru
Azərbaycan Respublikası Auditorlar Palatası

**Qlobal Pandemiya şəraitində Deloitte Azərbaycan Şirkətinin müştəriləri qarşısında duran vəzifə öhdəliklərini yerinə yetirməsi və qarşıya çıxan problemlərin həllinə dair**

**TÖVSİYYƏ MƏKTUBU**

**Giriş:**

Hal-hazırda bütün dünyada və eyni zamanda ölkəmizdə baş verən pandemiya şəraitinin Audit xidmətləri göstərən şirkətlərə də təsirini nəzərə alaraq Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən İşçi Qərargahının yaradılmasını və yeni dövrün çağırışlarına uyğun tövsiyələrin işlənib hazırlanması istiqamətində atılan addımları çox yüksək qiymətləndirir və eyni zamanda Deloitte Azərbaycan şirkəti olaraq sizi bu istiqamətdə atılan addimlarda dəstəkləməyə, təklif və tövsiyələrimizi sizinlə və ölkədə fəaliyyət göstərən digər audit şirkətləri ilə bölüşməkdən məmnunluq hissi keçiririk.

**Tədbirlər Planı:**

Qeyd edək ki, maliyyə hesabatlarının auditinə həm keyfiyyət həm də kəmiyyət baxımından təsir edə biləcək mənfi faktorları/problemləri müəyyən edərək onlarin təsirinin azaldılması və pandemiya şəraitində audit xidmətlərinin effektiv aparılması istiqamətində aşağıda qeyd olunan təklif və tövsiyələr işləyib hazırlamışıq.

**Problemlər, Təkliflər və Tövsiyələr:**

1. Ölkədə elan olunmuş xüsusi karantin rejimi qaydalarına uyğun olaraq, şirkətimizin demək olar ki, bütün əməkdaşlarının evdən distant işləmə siyasətini həyata keçirməsinə baxmayaraq, biz mütəmadi olaraq həftə içi bütün əməkdaşlarımızla auditin gedişatını telefonla müzakirə edirik. Eyni zamanda müştərilərlə, Skype, Zoom kimi kommunikasiya vasitələri ilə distant görüşlər keçirir və müştərilərə pandemiya şəraitində maliyyə hesabatların hazırlanması ilə bağlı öz tövsiyələrimizi bildirir və pandemiyanın maliyyə hesabatlarına təsirləri ilə bağlı müxtəlif vebinarlar təşkil edirik. Qeyd edək ki, təşkil olunacaq vebinarlarda Audit Palatasının səlahiyyətli nümayəndəsinin iştirakı da mümkündür və arzu olunandır.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

© 2020 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

2. Hal hazırki xüsusi rejimli karantin şəraitində audit xidmətlərinin distant aparılması bəzi hallarda müştərilər tərəfindən effektivliyin aşağı düşməsinə də gətirib çıxara bilir. Bunlara misal olaraq, audit yoxlaması zamanı mühasibat uçotu sənədlərinin elektron formada olmaması, mühasibat uçotu sistemlərinə evdən/işdən kənar distant daxil olmağın mümkünsüzlüyü və sair bu kimi hallar, audit prosedurlarının çətinləşməsinə və ləngiməsinə gətirib çıxara bilir. Bütün bunları nəzərə alaraq yuxarıda qeyd etdiyimiz kimi biz müştərilərlə vaxt aşırı əlaqə saxlayır, zəruri olduqda auditin yekunlaşma tarixini yenidən nəzərdən keçirir və mümkün olacaq gecikmələri birgə müzakirə edirik.

3. Audit xidmətlərinin distant aparılması zamanı şirkətlərin əhəmiyyətli ölçüdə məlumatları tələb oluna bilər və bu kimi hallarda məlumatların ötürülməsi zamanı konfidensiallığın və informasiya təhlükəsizliyinin qorunması çox vacib amillərdən biri kimi qiymətləndirilməlidir. Bizim tövsiyəmiz kifayət qədər təhlükəsiz informasiya sistemlərdən istifadə etmək və bu kimi məlumatların ötürülməsini sosial media vasitəsi ilə aparılmasını qadağan etməkdən ibarətdir.

4. Peşəkar inamsızlıq (skeptisizm) – Beynəlxalq Etika Standardartlarının əsas prinsiplərindən biri olan peşəkar inamsızlığın distant audit xidmətlərinin aparılması zamanı qorunub saxlanması ən mühüm və eyni zamanda kifayət qədər çətin məsələlərdən biri olduğunu nəzərə alaraq biz, peşəkar inamsızlığı çox ciddi şəkildə qoruyub saxlamağı və distant aparılan audit xidmətlərindən asılı olmayaraq onun tətbiqinə ciddi şəkildə çalışırıq.

5. Müəyyən hallarda bəzi audit prosedurlarının distant keçirilməsinin mümkünsüzlüyünü nəzərə alaraq (misal olaraq mal və material ehtiyatlarının, əsas vəsaitlərin fiziki sayımı və sair) audit şirkətlərinin işçi heyətinə lazım olduğu təqdirdə, müştərilərə audit xidmətlərinin fasiləsizliyinin təmin edilməsi məqsədi ilə, rəsmi qurumlardan icazələrin alınmasının Audit Palatası tərəfindən təşkil edilməsi müsbət addım ola bilər.

6. Son olaraq onu qeyd etmək istərdik ki, müştəriləri narahat edən məsələlərdən biri də müxtəlif orqanlara hesabatların təqdim olunması ilə bağlı yaranmış gecikmələrlə bağlıdır (mənfəət vergi bəyannaməsinin, maliyyə hesabatlarının və s. təqdim olunması). Təbii ki, Dövlət tərəfindən artıq bir sıra sahələrdə bu kimi hallarla bağlı müəyyən işlərin görüldüyünün şahidiyik - xüsusi karantin rejimi ilə əlaqədar məhdudiyyətləri nəzərə alaraq, vergi bəyannamələrinin təqdim edilməsi və müəyyən vergilərin ödənilməsi müddəti uzadıldı.

Hörmətlə:

Camal Həsənov

Partnyor